QANUN № 08 (382), 2026, s.58-65

Ramazanov Anar Sabir oğlu,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü,
"Heritus Group" MMC-nin
hüquqşünası
Ünvan: Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi, 22C
E-mail: anar.ramazanov@gmail.com

UOT 341.24
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.158

ORTA DƏHLİZDƏ TRANZİT PROSEDURLARININ RƏQƏMSAL TRANSFORMASIYASI: eTIR VƏ eCMR SİSTEMLƏRİNİN GÖMRÜK HÜQUQU VƏ BEYNƏLXALQ XÜSUSİ HÜQUQ MÜSTƏVİSİNDƏ HÜQUQİ-İNSTİTUSİONAL TƏHLİLİ

Açar sözlər: *gömrük hüququ, tranzit proseduru, rəqəmsallaşdırma, eTIR, eCMR, Orta dəhliz, Trans-Xəzər marşrutu, elektron imza, beynəlxalq xüsusi hüquq, UNECE.*

Ключевые слова: *таможенное право, транзитная процедура, цифровизация, eTIR, eCMR, Срединный коридор, Транскаспийский маршрут, электронная подпись, международное частное право, ЕЭК ООН*

Keywords: *customs law, transit procedure, digitalisation, eTIR, eCMR, Middle Corridor, Trans-Caspian route, electronic signature, private international law, UNECE.*

GİRİŞ

Gömrük orqanları öz funksiyalarını həyata keçirərkən risklərin azaldılması, beynəlxalq ticarət-təchizat zəncirinin fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, iqtisadi maraqların qorunması, xarici və qarşılıqlı ticarət əlaqələrinin inkişafı və xarici ticarətin asanlaşdırılmasına şəraitin yaradılması məqsədi ilə gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətli dövlət orqanları ilə beynəlxalq müqavilələrə uyğun olaraq mübadiləsini həyata keçirirlər [4, maddə 1.2].

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu — Orta dəhliz — Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa istiqamətlərini əhatə edən multimodal yükdaşıma xəttidir. Son illərdə geosiyasi, iqtisadi və logistika amilləri bu marşrutun strateji əhəmiyyətini artırmış, eyni zamanda onun səmərəli fəaliyyəti üçün sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması zərurətini meydana çıxarmışdır. Bu kontekstdə elektron gömrük tranzit sistemi olan eTIR və elektron beynəlxalq avtomobil daşınması qaiməsi — eCMR — Orta dəhlizin hüquqi və texnoloji infrastrukturunun əsas elementləri kimi çıxış edir.

Tranzit əməliyyatlarının rəqəmsallaşdırılması yalnız kağız sənədlərin elektron formaya keçirilməsi demək deyildir. Bu proses gömrük orqanları, daşıyıcılar, ekspeditorlar, limanlar, dəmir yolu və avtomobil nəqliyyatı operatorları, sığortaçılar və digər iştirakçılar arasında məlumat mübadiləsinin hüquqi cəhətdən tanınmasını, məlumatların bütövlüyünün və məxfiliyinin qorunmasını, elektron imzaların qarşılıqlı qəbulunu, habelə müxtəlif dövlət informasiya sistemlərinin texniki və semantik uyğunluğunu tələb edir.

Azərbaycan Respublikası üçün məsələnin hüquqi əsasını Konstitusiyanın müvafiq müddəaları, Gömrük Məcəlləsi, "Elektron imza və elektron sənəd haqqında" Qanun, "Fərdi məlumatlar haqqında" Qanun, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

I. TRANZİT PROSEDURLARININ RƏQƏMSALLAŞDIRILMASININ KONSTİTUSİON VƏ GÖMRÜK-HÜQUQİ ƏSASLARI

1.1. Konstitusion çərçivə

Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir [1, maddə]. Rəqəmsal gömrük və tranzit sistemlərinin tətbiqi bu məqsədlə iki istiqamətdə əlaqəlidir: bir tərəfdən, sərhəd-keçid prosedurlarının sürətləndirilməsi sahibkarlıq fəaliyyətinin və mülkiyyət hüququnun həyata keçirilməsi üçün əlverişli şərait yaradır; digər tərəfdən, gömrük və logistika sistemlərində toplanan kommersiya sirri, fərdi məlumatlar və digər həssas informasiyanın qanunsuz istifadədən qorunması konstitusion təminatların mühüm tərkib hissəsini təşkil edir.

Konstitusiyanın 29-cu maddəsində mülkiyyət hüququ, 32-ci maddəsində şəxsi toxunulmazlıq və şəxsi həyatın müdafiəsi, 57-ci maddəsində müraciət hüququ, 94-cü maddəsinin I hissəsinin 1-ci bəndində isə Milli Məclisin qanunvericilik səlahiyyətləri təsbit edilmişdir [1]. Elektron tranzit platformalarının fəaliyyəti zamanı yükün sahibi, daşıyıcı, gömrük nümayəndəsi və digər şəxslər haqqında məlumatların emalı qanunilik, məqsədyönlülük, zərurilik və təhlükəsizlik prinsiplərinə əsaslanmalıdır.

1.2. Gömrük Məcəlləsi və elektron sənəd qanunvericiliyi

Gömrük prosedurlarının elektron modellərinin yaradılması və tətbiqi Gömrük Məcəlləsi ilə nizamlanır [2, maddə 34]. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi gömrük ərazisindən malların keçirilməsi, gömrük prosedurlarının tətbiqi, tranzit proseduru, gömrük bəyannaməsinin təqdim edilməsi, gömrük nəzarəti və gömrük orqanları ilə iqtisadi operatorlar arasında informasiya mübadiləsinin ümumi hüquqi çərçivəsini müəyyən edir. Məcəllənin elektron formada məlumat və sənədlərin təqdim edilməsinə dair müddəaları rəqəmsal tranzit sistemlərinin milli hüquq sisteminə inteqrasiyasına imkan verir; bu sənədlərin tətbiqi isə elektron imza sahəsindəki xüsusi qanunvericiliyin tələbləri ilə əlaqələndirilir [2].

«Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanunu elektron imzanın və elektron sənədin hüquqi qüvvəsini, elektron sənəd dövriyyəsinin əsaslarını, elektron imzanın identifikasiya və autentifikasiya funksiyalarını müəyyən edir [3]. Elektron sənədin kağız sənədlə hüquqi baxımdan bərabərliyinin təmin edilməsi tranzit məlumatlarının gömrük, nəqliyyat və məhkəmə prosedurlarında sübut kimi istifadə olunmasının əsas şərtlərindən biridir.

Gömrük hüququ dövlətin gömrük ərazisinə daxil olan və həmin ərazidən çıxan mallara münasibətdə gömrük ödənişlərinin tutulmasını, qadağa və məhdudiyyətlərin tətbiqini, gömrük nəzarətinin həyata keçirilməsini tənzimləyən kompleks hüquq sahəsidir. D.N. Baxrax gömrük hüququnu inzibati hüququn institutu kimi təhlil edərək onun əsas məzmununu gömrük orqanlarının dövlət idarəçiliyindəki rolu, gömrük nəzarətinin həyata keçirilməsi və gömrük sahəsindəki inzibati-hüquqi münasibətlər təşkil etdiyini göstərir [5, s. 13–21].

Elektron sənədin hüquqi qüvvəyə malik olması onun yalnız rəqəmsal formada mövcudluğu ilə məhdudlaşmır: sənədin müəllifinin müəyyən edilməsi, imzanın həmin şəxsə aidliyinin təsdiqi, sənədin dəyişdirilmədən saxlanması, vaxt möhürü, giriş səlahiyyətlərinin idarə edilməsi və audit izlərinin qorunması da təmin edilməlidir. Bu tələblər eTIR və eCMR sistemlərinin hüquqi etibarlılığı baxımından fundamental xarakter daşıyır.

II. eTIR SİSTEMİNİN HÜQUQİ-İNSTİTUSİONAL MAHİYYƏTİ

2.1. Hüquqi əsas

eTIR sistemi malların TIR Konvensiyası çərçivəsində elektron məlumat və elektron zəmanət mexanizmlərindən istifadə edilməklə daşınmasını təmin edən beynəlxalq rəqəmsal platformadır. TIR Konvensiyasının əsas məqsədi beynəlxalq avtomobil daşımalarında gömrük tranzit prosedurlarını sadələşdirmək və malların tranzit ölkələrindən keçidi zamanı gömrük rüsumları ilə vergilərinin ödənilməsinə dair zəmanət yaratmaqdır [8].

eTIR-in hüquqi əsası TIR Konvensiyasına əlavə edilmiş 11-ci Əlavə ilə möhkəmləndirilmişdir [8, Əlavə 11]. Bu əlavə eTIR beynəlxalq sisteminin yaradılması, idarə olunması, məlumat mübadiləsi və iştirakçı dövlətlərin milli gömrük sistemləri ilə əlaqələndirilməsi üçün institusional çərçivə formalaşdırır. Elektron TIR proseduru kağız TIR karnetinin funksiyalarını rəqəmsal məlumat mübadiləsi, elektron autentifikasiya və beynəlxalq zəmanət mexanizmləri vasitəsilə həyata keçirməyə yönəlmişdir.

Beynəlxalq tranzit xüsusi gömrük proseduru xarici malların gömrük rüsumları, əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük nəzarəti altında bir yerdən başqa yerə daşınmasıdır [2, maddə 174.1].

Beynəlxalq gömrük hüququnun mühüm xüsusiyyəti ondan ibarətdir ki, dövlətlər gömrük ərazisi və gömrük nəzarəti üzərindəki suveren səlahiyyətlərini saxlasalar da, bu səlahiyyətlərin həyata keçirilməsi beynəlxalq müqavilələr və çoxtərəfli ticarət standartları ilə əlaqələndirilir. A. Mazur, S. Perepolkin və O. Havrilenko beynəlxalq gömrük hüququnun inkişafını dövlətlərin gömrük siyasətinin beynəlxalq hüquqi normalar, regional inteqrasiya prosesləri və gömrük prosedurlarının unifikasiyası vasitəsilə uyğunlaşdırılması kontekstində nəzərdən keçirirlər [6, s. 128-139].

2.2. Azərbaycanın eTIR sisteminə inteqrasiyası

UNECE-nin məlumatına görə, Azərbaycanın milli gömrük sistemi eTIR beynəlxalq sistemi ilə əlaqələndirilmiş; Azərbaycan, Türkmənistan və Özbəkistan arasında eTIR sistemi çərçivəsində ilk beynəlxalq tranzit yükdaşınması uğurla həyata keçirilib. Layihə regionda rəqəmsal gömrük prosedurlarının tətbiqi və Orta Dəhliz üzrə yükdaşımalarının daha səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıyır. Bu fakt eTIR-in yalnız nəzəri hüquqi model olmadığını, Azərbaycan istiqamətində praktiki tətbiq imkanına malik olduğunu sübut edir.

eTIR-in hüquqi üstünlüyü ondan ibarətdir ki, tranzit məlumatları əvvəlcədən elektron forma-

da gömrük orqanlarına təqdim edilir. Nəticədə gömrük nəzarəti risklərin idarə edilməsi prinsipi əsasında həyata keçirilə, aşağı riskli yüklərə münasibətdə sərhəd-keçid vaxtı azaldıla, nəzarət resursları isə yüksək riskli əməliyyatlara yönəldilə bilər. T. Matsudaira və C. Koh qeyd edirlər ki, informasiya-kommunikasiya texnologiyalarından istifadə gömrük administrasiyalarına bəyannamə və manifest məlumatlarını avtomatlaşdırılmış qaydada emal etməyə, məlumatları dəstəkləyici sənədlərlə tutuşdurmağa, malların təsnifatını və gömrük dəyərini yoxlamağa, habelə riskləri daha dəqiq müəyyən etməyə imkan verir [9, s. 203-211].

2.3. Hüquqi uyğunluq tələbləri

eTIR-in tam fəaliyyət göstərməsi üçün milli gömrük sistemlərinin yalnız texniki deyil, həm də hüquqi uyğunluğu təmin edilməlidir. Dövlətlər arasında məlumatların hansı formada təqdim edilməsi, məlumat sahibinin və emal edən orqanın məsuliyyəti, elektron zəmanətin hüquqi qüvvəsi, sistemdə yaranan texniki nasazlıqlar zamanı alternativ prosedurlar və elektron qeydlərin sübut dəyəri əvvəlcədən müəyyənləşdirilməlidir.

III. eCMR VƏ BEYNƏLXALQ XÜSUSİ HÜQUQ ASPEKTLƏRİ

3.1. eCMR-in hüquqi əsası

eCMR sistemi 1956-cı il CMR Konvensiyası əsasında həyata keçirilən beynəlxalq avtomobil yükdaşımalarında elektron qaimədən istifadəni mümkün edir. CMR Konvensiyası beynəlxalq avtomobil daşınması müqaviləsinin bağlanması, daşıyıcının məsuliyyəti, yükün qəbul edilməsi və təhvil verilməsi, yükün itməsi və ya zədələnməsi ilə bağlı əsas maddi hüquq qaydalarını müəyyən edir [7].

2008-ci il eCMR Əlavə Protokolunun 2-ci maddəsinin 1-ci bəndinə əsasən, CMR qaiməsi, habelə daşınma müqaviləsinin icrası ilə bağlı tələb, bəyanat, təlimat, bildiriş və digər məlumatlar elektron rabitə vasitəsilə tərtib edilə bilər [7, maddə 2, bənd 1]. Protokolun əsas hüquqi nəticəsi ondan ibarətdir ki, onun tələblərinə uyğun hazırlanan elektron qaimə kağız qaiməyə bərabər hesab olunur və eyni hüquqi məna ilə nəticələri doğurur [7, maddə 2, bənd 2].

3.2. Elektron qaimənin autentikliyi və bütövlüyü

Protokolun 3-cü maddəsi elektron qaimənin autentikliyini, 4-cü maddəsi elektron qaimənin hazırlanması zamanı məlumatların bütövlüyünü tənzimləyir [7, maddə 3, bənd 1; maddə 4, bənd 2]. Elektron qaimənin hüquqi etibarlılığı üç əsas meyarla bağlıdır: imzalayan şəxsin identifikasiyası, məlumatların dəyişdirilmədən qorunması və elektron qaimənin səlahiyyətli tərəflər üçün əlçatan olması.

3.3. eCMR Əlavə Protokolunun 5-ci maddəsi

eCMR sisteminin praktik işləməsi üçün müqavilə tərəflərinin müəyyən prosedurlar barədə razılığa gəlməsini tələb edən 5-ci maddə xüsusi əhəmiyyət daşıyır. Həmin maddənin 1-ci bəndinə əsasən, daşınma müqaviləsinin icrasında maraqlı olan tərəflər aşağıdakı prosedurlar barədə razılığa gəlməlidirlər [7, maddə 5, bənd 1]:

a) elektron qaimənin verilməsi və səlahiyyətli tərəfə təqdim edilməsi üsulu;

b) qaimədəki məlumatların bütövlüyünün qorunması;

c) tərəfin elektron qaimədə nəzərdə tutulan hüquqlarını sübut etməsi qaydası;

d) yükün alıcıya təhvil verilməsinin təsdiqi;

e) elektron qaiməyə əlavə və dəyişikliklərin edilməsi proseduru;

f) elektron qaimənin başqa formada tərtib edilmiş qaimə ilə əvəz edilməsi qaydası.

Bu norma eCMR-in sadəcə texniki platforma deyil, müqavilə tərəfləri arasında əvvəlcədən ra-

zılaşdırılmış hüquqi prosedur olduğunu göstərir. Hüquqi nəticə məlumatın autentikliyi, bütövlüyü, dəyişikliklərin izlənə bilməsi və tərəflərin həmin məlumatdan istifadə qaydalarının əvvəlcədən müəyyənləşdirilməsi ilə bağlıdır.

3.4. Elektron imzanın qarşılıqlı tanınması problemi

eCMR çərçivəsindəki məlumatlar beynəlxalq xüsusi hüquq baxımından mühüm nəticələr yaradır. Daşıyıcının, göndərənin və alıcının müxtəlif ölkələrdə yerləşməsi, müqaviləyə tətbiq ediləcək hüququn və mübahisəyə baxacaq məhkəmənin ayrıca müəyyənləşdirilməsi elektron məlumatların hansı dövlətin hüququna əsasən qiymətləndiriləcəyi məsələsini gündəmə gətirir.

Azərbaycan Respublikasının «Elektron imza və elektron sənəd haqqında» Qanunu milli elektron imza infrastrukturunun hüquqi əsaslarını müəyyən etsə də [3], xarici dövlətlərdə verilmiş elektron imzaların avtomatik tanınması məsələsi yalnız milli qanunvericiliklə həll edilmir. Bu sahədə ikitərəfli və çoxtərəfli sazişlər, sertifikatlaşdırma xidmətlərinin qarşılıqlı tanınması, etibarlı xidmət təminatçılarının statusu və imza sertifikatlarının yoxlanılması mexanizmləri tələb olunur.

Elektron imzanın qarşılıqlı tanınmaması halında eCMR məlumatı faktiki olaraq mövcud olsa da, onun mübahisə zamanı sübut kimi qəbul edilməsi çətinləşə bilər. Buna görə Orta dəhliz ölkələri arasında elektron imza, elektron möhür, vaxt möhürü, məlumatların autentikliyi və elektron sənədlərin arxivləşdirilməsi üzrə vahid və ya uyğunlaşdırılmış standartların müəyyən edilməsi zəruridir.

Azərbaycanın eCMR Əlavə Protokoluna hələ tərəfdar çıxmadığı UNECE-nin rəsmi materiallarında qeyd edilir. Bu hal eCMR-in Azərbaycan üzərindən keçən multimodal daşımalarda tam hüquqi qüvvə ilə tətbiqini məhdudlaşdıran əsas institusional boşluqlardan biri kimi qiymətləndirilməlidir.

IV. REGİONAL İNSTİTUSİONAL MEXANİZMLƏR VƏ VAHİD RƏQƏMSAL ARXİTEKTURA

4.1. SPECA Trans-Xəzər Rəqəmsallaşdırma Yol Xəritəsi

Orta dəhliz üzrə rəqəmsallaşdırma yalnız ayrı-ayrı dövlətlərin milli layihələri əsasında davam etdirildikdə məlumat mübadiləsində parçalanma yarana bilər. 2023-cü ilin noyabrında SPECA iştirakçısı olan dövlətlərin dövlət və hökumət başçıları Trans-Xəzər nəqliyyat dəhlizi boyunca multimodal məlumat və sənəd mübadiləsinin rəqəmsallaşdırılması üzrə Yol Xəritəsini qəbul etmişlər [11]. Yol Xəritəsi UN/CEFACT standartlarından və istinad məlumat modellərindən istifadə etməklə dəhliz üzrə məlumat mübadiləsinin mərhələli şəkildə inkişaf etdirilməsini nəzərdə tutur. Bu yanaşma müxtəlif nəqliyyat növləri — avtomobil, dəmir yolu, dəniz və liman infrastrukturu — arasında semantik uyğunluğun yaradılmasına xidmət edir.

WCO-nun Tranzit üzrə Təlimatında effektiv tranzit sisteminin əsas elementləri sırasında aydın hüquqi baza, gömrük zəmanəti, sadələşdirilmiş sənədləşmə, risklərin idarə edilməsi, gömrük orqanları arasında əməkdaşlıq və elektron məlumat mübadiləsi göstərilir [10, s. 9-18]. Tranzit prosedurlarının səmərəliliyi yalnız sərhəddə yoxlama müddətinin azaldılması ilə ölçülmür: malların hərəkətinin başlanğıc məntəqəsindən təyinat gömrük orqanına qədər hüquqi və texniki baxımdan izlənilə bilməsi əsas məsələdir [10, s. 42-54].

4.2. Vahid rəqəmsal arxitekturanın hüquqi çərçivəsi

Vahid rəqəmsal arxitektura üç səviyyədə qurulmalıdır:

Hüquqi səviyyə: elektron sənədlərin hüquqi qüvvəsi, məlumatların qorunması, elektron imzanın tanınması, məsuliyyət və mübahisələrin həlli;

İnstitusional səviyyə: gömrük, nəqliyyat, liman və digər səlahiyyətli orqanların funksiyaları, məlumat sahibi və məlumat operatorunun statusu, koordinasiya mexanizmləri;

Texniki səviyyə: məlumat formatları, API-lər, identifikasiya vasitələri, kibertəhlükəsizlik, ehtiyat sistemləri və audit mexanizmləri.

Rəqəmsal sistemlər həmçinin gömrük orqanlarının fəaliyyətində hesabatlılığı gücləndirir. Elektron əməliyyatların vaxtı, istifadəçisi, dəyişiklik tarixçəsi və qərar mərhələləri sistemdə qeydə alındığından sonradan audit aparmaq mümkün olur. Bu baxımdan rəqəmsallaşdırma korrupsiya risklərinin azaldılması, insan müdaxiləsinin məhdudlaşdırılması və gömrük qərarlarının izlənə bilməsi üçün institusional vasitə kimi çıxış edir [9, s. 218–225].

Orta dəhliz kimi multimodal marşrutlarda yük avtomobil nəqliyyatından dəmir yoluna, dəmir yolundan limana, daha sonra isə dəniz və yenidən avtomobil nəqliyyatına keçə bilər. Hər bir mərhələdə müxtəlif nəqliyyat sənədləri, daşıyıcılar və səlahiyyətli orqanlar iştirak edir. Buna görə vahid rəqəmsal tranzit arxitekturası müxtəlif sənədlər arasında məlumatların ardıcıllığını və hüquqi əlaqəni təmin etməlidir.

4.3. Çoxtərəfli hüquqi protokolun zəruriliyi

Siyasi deklarasiya və ya memorandum gömrük orqanları üçün birbaşa məcburi hüquqi öhdəlik yaratmaya bilər. Buna görə rəqəmsal tranzit məlumatlarının tanınması, elektron imzaların qarşılıqlı qəbul edilməsi və sistemlərarası məsuliyyət məsələləri məcburi beynəlxalq hüquqi aktla tənzimlənməlidir.

Orta dəhliz ölkələri arasında ayrıca çoxtərəfli hüquqi protokolun qəbul edilməsi məqsədəuyğundur. Həmin protokol aşağıdakı məsələləri əhatə etməlidir:

- eTIR və eCMR sistemlərinin qarşılıqlı əlaqəsi;
- elektron imzanın və elektron möhürün tanınması;
- məlumatların qorunması və kibertəhlükəsizlik;
- texniki nasazlıq zamanı alternativ prosedurlar;
- səlahiyyətli orqanların məsuliyyəti;
- mübahisələrin həlli qaydaları.

NƏTİCƏ

eTIR və eCMR sistemləri Orta dəhlizdə tranzit əməliyyatlarının səmərəliliyini və şəffaflığını artıran, gömrük nəzarətini risklərin idarə edilməsinə əsaslanan modelə keçirən mühüm rəqəmsal alətlərdir. eTIR əsasən gömrük tranziti və beynəlxalq zəmanət mexanizmini, eCMR isə beynəlxalq avtomobil daşınması müqaviləsinin elektron sənədləşdirilməsini təmin edir. Bu sistemlər funksional baxımdan bir-birini tamamlayır, lakin hüquqi baxımdan müxtəlif beynəlxalq konvensiyalara əsaslanır.

Azərbaycanın milli qanunvericiliyi — Gömrük Məcəlləsi və «Elektron imza və elektron sənəd haqqında» Qanun — elektron tranzit prosedurlarının tətbiqi üçün zəruri hüquqi baza yaradır. Bununla belə, Orta dəhliz üzrə tam inteqrasiya üçün milli hüquqi çərçivələrin uyğunlaşdırılması, elektron imzaların qarşılıqlı tanınması, elektron məlumatların sübut dəyərinin müəyyən edilməsi və şəxsi məlumatların transsərhəd ötürülməsi məsələlərinin vahid qaydada tənzimlənməsi tələb olunur.

Azərbaycanın eCMR Əlavə Protokoluna qoşulması, eTIR sisteminin tam institusional inteqrasiyasının tamamlanması və Orta dəhliz ölkələri arasında çoxtərəfli rəqəmsal tranzit protokolunun qəbul edilməsi bu sahədəki əsas hüquqi prioritetlər kimi müəyyən edilməlidir. Belə protokol rəqəmsal tranzit məlumatlarının hüquqi dövriyyəsini təmin etməklə yanaşı, Orta dəhlizin vahid, təhlükəsiz və rəqabətqabiliyyətli logistika məkanına çevrilməsinə xidmət edər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. https://e-qanun.az/framework/46957.
3. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu. // https://e-qanun.az/framework/5916
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 7 may tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətli dövlət orqanları ilə mübadiləsi Qaydaları". https://e-qanun.az/framework/23548].
5. Бахрах Д.Н. Таможенное право как институт административного права // Государство и право. 1995. № 3. С. 13–21.
6. Мазур А., Переполкин С., Гавриленко О. Формирование и развитие международного таможенного права: вопросы периодизации // World Customs Journal (Журнал мировой таможни). 2022. Т. 16. № 2. С. 128–139.
7. Additional Protocol to the Convention on the Contract for the International Carriage of Goods by Road (CMR) concerning the Electronic Consignment Note. Geneva, 20 February 2008. Articles 2–6. https://treaties.un.org/doc/source/signature/xi-b-11-b_eng.pdf
8. Customs Convention on the International Transport of Goods under Cover of TIR Carnets (TIR Convention), Geneva, 1975. Annex 11 (eTIR international system). https://treaties.un.org/pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=XI-A-16&chapter=11&clang=_en
9. Matsudaira T., Koh J. Customs Administration and Digitalization // Customs Matters: Strengthening Customs Administration in a Changing World. Washington, D.C.: International Monetary Fund, 2022. P. 203–233.
10. World Customs Organization. Transit Handbook. Brussels: WCO. https://www.wcoomd.org/-/media/wco/public/global/pdf/topics/facilitation/instruments-and-tools/tools/transit/transit-handbook.pdf.
11. UNECE. Roadmap for Digitalization of Multimodal Data and Document Exchange along the Trans-Caspian Transport Corridor. 2023. // https://unece.org/sites/default/files/2024-06/Roadmap-Digitalization-Trans-CaspianCorridor_Eng.pdf

Рамазанов Анар Сабир оглу,
член Коллегии адвокатов Азербайджанской Республики,
юрист ООО «Херитус Груп»

ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ ТРАНЗИТНЫХ ПРОЦЕДУР НА СРЕДИННОМ КОРИДОРЕ: ПРАВОВОЙ И ИНСТИТУЦИОНАЛЬНЫЙ АНАЛИЗ СИСТЕМ eTIR И eCMR В ПЛОСКОСТИ ТАМОЖЕННОГО ПРАВА И МЕЖДУНАРОДНОГО ЧАСТНОГО ПРАВА

РЕЗЮМЕ

В статье проводится комплексный анализ цифровой трансформации транзитных операций вдоль Транскаспийского международного транспортного маршрута (Срединного коридора) в плоскости таможенного права и международного частного права. В центре исследования находятся правовые и институциональные основы систем eTIR и eCMR, международно-правовые обязательства Азербайджанской Республики, вытекающие из соответствующих конвенций, проблема взаимного признания электронной подписи при трансграничном обмене данными, а также процедуры применения статьи 5 Дополнительного протокола к Конвенции eCMR. Региональные институциональные механизмы — Дорожная карта по цифровизации Транскаспийского коридора в рамках СПЕКА и достижения в рамках ЕЭК ООН — оцениваются с точки зрения эффективности таможенного контроля. В заключение обосновывается необходимость принятия многостороннего правового протокола в целях формирования единой цифровой транзитной архитектуры для стран Срединного коридора.

Ramazanov Anar Sabir,
Member of Bar Association of the Republic of Azerbaijan,
Attorney, "Heritus Group" LLC

DIGITAL TRANSFORMATION OF TRANSIT PROCEDURES ALONG THE MIDDLE CORRIDOR: A LEGAL AND INSTITUTIONAL ANALYSIS OF THE eTIR AND eCMR SYSTEMS UNDER CUSTOMS LAW AND PRIVATE INTERNATIONAL LAW

SUMMARY

The article presents a comprehensive analysis of the digitalisation of transit operations along the Trans-Caspian International Transport Route (Middle Corridor) from the perspective of customs law and private international law. The study focuses on the legal and institutional foundations of the eTIR and eCMR systems, the international treaty obligations of the Republic of Azerbaijan arising from the relevant conventions, the issue of mutual recognition of electronic signatures in cross-border data exchange, and the implementation procedures required under Article 5 of the Additional Protocol to the CMR Convention on the Electronic Consignment Note. Regional institutional mechanisms — the SPECA Roadmap for Digitalisation of the Trans-Caspian Corridor and developments within the UNECE framework — are assessed in terms of their contribution to the effectiveness of customs control. The article concludes by substantiating the necessity of adopting a multilateral legal protocol aimed at establishing a unified digital transit architecture for the Middle Corridor countries.

Redaksiyaya daxilolma tarixi: 08.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 17.08. 2026
Çapa qəbul olunma tarixi: 22.08.2026